ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431

**Könül Nərimanqızı**
**f.ü.f.d., dosent, ADPU-nun Filologiya fakültəsinin dekanı**
**Konul.hasanova@adpu.edu.az**
**ORCID: 0000-0001-8795-252X**

# TARIXI ONOMASTIKA MAHMUD KAŞĞARI “DIVAN”ıNDA

**Xülasə:** Qədim türk onomastikası mürəkkəb, amma kifayət qədər dəqiq və mütəşəkkil bir sistem təşkil edir. Qədim türk onomastikası dedikdə XIII əsrə (monqol hücumuna) qədərki lüğətlərdə və digər yazılı mənbələrdə öz əksini tapmış bütün xüsusi adların toplusu dərk edilməlidir. Bu məsələ ciddi və aktual olduğundan həmin dövrün onomastikasının formalaşması və işlənməsi xüsusiyyətlərinin tədqiqinə bir sistem kimi yanaşması tələb olunur.

Məqalədə 2009-cu ildə Cahid İsmayıloğlunun yazmış olduğu “Mahmud Kaşğari “Divan”ının onomastik leksikası” kitabının məzmun və mahiyyəti təqdir olunur. “Divan”ın 950 illiyi ərəfəsində bu əsərdəki onomastikanın (antroponim və toponimlərin) mənşəyi, morfoloji və sintaktik xüsusiyyətləri, leksik-semantik özəllikləri, şamanizmin izləri və s. nəzərdən keçirilir.

**Açar sözlər:** Onomastika, leksika, toponim, Mahmud Kaşğari, dil tarixi.

**Summary:** Ancient Turkic onomastics is a complex, but fairly accurate and organized system. Ancient Turkish onomastics should be understood as a collection of all proper names reflected in dictionaries and other written sources until the 13th century (Mongol attack). Since this issue is serious and relevant, it is required to approach the study of the characteristics of the formation and processing of onomastics of that period as a system.

The article praises the content and essence of the book "Onomastic Lexicon of Mahmud Kashgari Divan" written by Cahid Ismayiloglu in 2009. On the eve of the 950th anniversary of "Divan", the origin of onomastics (anthroponyms and toponyms), morphological and syntactic features, lexical-semantic features, traces of shamanism, etc. is considered.

**Key words:** Onomastics, lexicon, toponym, Mahmud Kashgari, language history

**Резюме:** Древнетюркская ономастика представляет собой сложную, но достаточно точную и организованную систему. Древнетюркскую ономастику следует понимать как совокупность всех имен собственных, отраженных в словарях и других письменных источниках до XIII века (нападение монголов). Поскольку этот вопрос серьезен и актуален, необходимо подойти к изучению особенностей формирования и обработки ономастики того периода как системно.

В статье высоко оценивается содержание и суть книги «Ономастический лексикон Махмуда Кашгари Дивана», написанной Джахидом Исмаилоглу в 2009 году. В преддверии 950-летия «Дивана» раскрываются происхождение ономастики (антропонимов и топонимов), морфологические и синтаксические особенности, лексико-семантические особенности, следы шаманизма и др. Считается.

**Ключевые слова:** Ономастика, лексика, топоним, Махмуд Кашгари, история языка.

"Milli-tarixi onomastik vahidlər təkcə xalqın xüsusini ümumidən ayırmaq üçün istifadə etdiyi dil işarələri statusunda məhdudlaşıb qalmır, həm də xalqın tarixi taleyini öz məzmununda əks etdirən qiymətli mənbə, soraq rolunu oynayır"(1, s.5-6).

Tarixi mənbələrin işığı altında hələ V-X əsrlədə Göytürk dövləti qurulmuş, *balık* (şəhər), *oba, yazı, yıştagözü, yal, kaş* və s. kimi coğrafi məfhumlar yaranmışdır. Daha sonra Göytürk dövlətinin yerini alan Uyğur xanlığında türk yer adları sistemi ilə yer adları zənginləşmişdir. Beləliklə, türk cəmiyyətinin yer adları sistemi dəyişmiş, yeniləşmiş, Türk adlı yeni şəhərlər, balıklar törəmişdir. "Balık" şəhər, qala mənasında işlənməyə başlamışdır.

Kitab "XI yüzilliyin onomastik leksikası" (2, 231 s.) adlanır. Kitaba "ön söz" yazmış prof. Qəzənfər Kazımov bu tədqiqatı "müəllifinə uğur gətirən əsər" adlandırmışdır. "Ön söz" müəllifi yazır ki, "Heç bir izsiz yox olmur" müdrik kəlamı Mahmud Kaşğarinin "Divanü lügət-it-türk" əsəri ilə də təsdiq olunur. Cahid İsmayıloğlu istedadlı bir gəncdir. Hələ namizədlik mövzusu götürənə qədər türk tarixinə, Azərbaycan türk dilinin inkişaf yoluna dair xeyli məqalə yazmışdır. Yazıları burada və Türkiyədə çap olunmuşdur. İstiqaməti xəlqi və millidir, vətənsevər bir gəncdir. C.İsmayıloğlunun aspirantura illərində seçdiyi mövzu bu yazınlarda tədqiqatı ilə tanış olduğum, lakin adını demək istəmədiyim bir "doktorluq dissertasiyasından on dəfə faydalı və maraqlıdır. Əslində, cəmiyyətin və dilin inkişaf tarixini öyrənmək istiqamətində antroponimlər, etnonim və toponimlər kifayət qədər material verir. Müəllif də öz tədqiqatını, başlıca olaraq, bunların üzərində qurmşdur (3, 6)

Cahid Kazımovun tədqiqatı bütövlükdə tarixi onomastik vahidlərin təhlili və etimoloji araşdırmalar üzərində qurulmuşdur.

Tədqiqatdan bəlli olur ki, Kaşğari "Divan"ının onomastik leksikası zəngindir və bu əsasda bir tarix yaratmaq olar. Elə buna görə də müəllif tədqiqat prosesində yeri gəldikcə o dövrün cəmiyyət tarixinə də diqqət yetirməli olmuşdur.

Cahid İsmayıloğlu araşdırmalar əsasında bu qənaətə gəlir ki, M.Kaşğari daha çox Xaqanlıq türkcəsini, Çigilcə və Oğuacanı canlandıra bilmiş..." Bizans hüdudlarından Çin sərhədlərinə qədər uzanan türk ellərində yaşayan türk qəbilə və tayfalarının ləhcə və dillərindən də nümunələr vermişdir.

Kaşğari lüğətində antroponimlərin tədqiqi bir çox cəhətdən maraqlı və faydalıdır. Ərəb işğalı nəticəsində islam dinini qəbul etmiş türk xalqları istifadə etdikləri xüsusi şəxs adlarını bir çox hallarda unutmuş, ərəb mənşəli xüsusi adlara keşmişlər. Lakin Kaşğari dövründə hələ islam dini insanların beyninə, qanına o dərəcə yeriməmişdi, tədim türk ad ənənəsi müəyyən nisbətdə davam etməkdə idi. C.İsmayıloğl bu cəhəti nəzərə almış və yazmışdır: "Şəxs adları türklərin qədim tarixini-islamdan əvvəlki dövrünü, onların adqoyma ənənələrini, dünyagörüşünü, dini-mifoloji təsəvvürlərini, psixologiyasını, qohumluq münasibətlərini, məşğuliyyətini və s. əks etdirir".

Prof. Mahirə Hüseynova yazır ki, "tədqiqatçı Cahid İsmayıloğlu 2009-cu ildə nəşr etdirdiyi kitabında onomastik leksikanı – şəxs adlarını, toponimləri, etnonimləri, hidronimləri müasir türkcələrlə müqayisədə izləmiş, problemə daha çox diaxronik, bəzən də sinxronik prizmalardan yanaşaraq, Azərbaycan, o sıradan türkologiyada tədqiqini gözləyən çox vacib bir m[vzunu hərtərəfli şəkildə araşdırnağa nail olmuşdur" (4, 11)

"Giriş" və iki fəsildən ibarət olan C.İsmayıloğlunun kitabının I fəslində "Divan"dakı antroponimlərin mənşəyi, morfoloji və sintaktik quruluşu, leksik-semantik tipləri, ləqəblər, etnonimlər, Oğuz boyları və s. məsələlər araşdırılmışdır. Müəllifin əsərinin II fəsli "Tarixi toponimik leksika" adlanır. Yarım bölmədən ibarət olan bi fəsildə dövrün yer adları, toponimik

vahidlərdə şamanizmin izləri, **"Man"** komponentli toponimlər, şəhər adları, mifoloji toponimlər, oronimlər, hipronimlər, ulduz adları və "Divan"dakı ərazi adlarının Azərbaycanda izləri mükəmməl şəkildə tədqiq edilmişdir.

Beləliklə, ilk dəfə olaraq M.Kaşğarinin sayəsində X əsr türk dünyasının coğrafi yayımını, arealını təyin etmək imkanı əldə edilmişdir. Tarixi-etimoloji tədqiqat nəticəsində qədim türk toponimikasının struktur-semantik və tipoloji istiqamətləri müqayisəli planda öyrənilmişdir. Mənbədəki onomastik leksikanın tarixi-etimoloji tədqiqi göstərir ki, bu istiqamətdə tarixi leksikologiya və tarixi morfologiya problemlərini də həll etmək mümkündür.

**Ədəbiyyat**

1. Akademik Ağamusa Axundov. Ön söz. Azərbaycan onomastikasında gedən proseslər. Respublika konfransının materialları, 25 may 2007

2. Cahid İsmayıloğlu. XI yüzilliyin tarixi omomastik leksikası. (Mahmud Kaşğarlı "Divanü lüğat-it-türk" əsəri əsasında). Bakı, "Elm", 2008, 231 s.

3. Prof.Q.Ş.Kazımov. Ön söz. Müəllifinə uğur gətirən əsər. Cahid İsmayıloğlu Kazımov. XI yüzilliyin tarixi onomastik leksikası (Mahmud Kaşğarlının "Divanü lüğat-it- türk" əsəri əsasında), Bakı, "Elm" nəşriyyatı, 2008

4. Hüseynova Mahirə. Mahmud Kaşğarinin "Divanü lügat-it-türk" əsərinin qrammatik xüsusiyyətləri. Bakı, ADPU-nun nəşriyyatı, 2022